TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

İLLİK HESABAT 2024

MÜNDƏRİCAT

3	HAQQIMIZDA
4-5	ƏSAS HƏDƏFLƏR VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ
6-10	KEYFİYYƏT TƏMİNATI
11-12	TANINMA
13-18	İL ƏRZİNDƏ GÖRÜLMÜŞ DİGƏR İŞLƏR

MÜNDƏRİCAT

MÜNDƏRİCAT

Haqqımızda

Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ölkə başçısının 29.12.2019-cu il tarixli, 907 nömrəli Fərmanı ilə yaradılıb və 09.01.2020-ci ildə dövlət qeydiyyatına alınıb. Elm və Təhsil Nazirliyinin (ETN) tabeliyində publik hüquqi şəxs statusuna malikdir.

Əsas hədəflər

- Azərbaycan Respublikasında təhsildə effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etmək;
- Keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini formalaşdırmaq;
- Müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, sərişta və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışına dəstək göstərmək;

Əsas fəaliyyət istiqamətləri

- Təhsil müəssisələrinin institusional və proqram akkreditasiya qiymətləndirilməsini həyata keçirmək;
- Təhsil müəssisələrində Daxili Keyfiyyət Təminatı sistemlərinin qurulması və inkşafı ilə bağlı məsləhət və metodik dəstək xidmətləri təşkil etmək;
- Təhsil müəssisəsinin nüfuzunun və mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasını təşviq etmək;
- Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması;
- Peşə təhsili üzrə qeyri-formal və informal təhsilin tanınmasını (QFİTT) həyata keçirmək;
- Müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və tətbiq etmək.

Keyfiyyət təminatı

İnstitusional akkreditasiya qiymətləndirilməsi:

Ölkə üzrə 11 ali təhsil müəssisəsinin (ATM) (Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Biznes Universiteti, Bakı Slavyan Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı, Qərbi Kaspi Universiteti, Bakı Dövlət Universitetinin Qazax filialı, Azərbaycan İdman Akademiyası, Naxçıvan Dövlət Universiteti) institusional akkreditasiya qiymətləndirilməsi həyata keçirilib.

TKTA
İNSTİTUSİONAL AKKREDİTASİYA ŞƏHADƏTNAMƏSİ
INSTITUTIONAL ACCREDITATION CERTIFICATE
№ AC000000013
AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ
AZERBAIJAN STATE OIL AND INDUSTRY UNIVERSITY
Akkreditasiya Şurasının 28 noyabr 2024-cü il tarixli AKŞQ-02 nömrəli qərarı ilə 5 (beş) il müddətində akkreditasiya olunmuşdur.
Has been accredited for 5 (five) years by decision № AKŞQ-02 of the Accreditation Council, dated 28 November, 2024.
İdarə Heyətinin sədri
Chairperson of the Management Board
Tural Əhmədov

TKTA
İNSTİTUSİONAL AKKREDİTASİYA ŞƏHADƏTNAMƏSİ
INSTITUTIONAL ACCREDITATION CERTIFICATE
№ AC000000014
BAKI BİZNES UNİVERSİTETİ
BAKU BUSINESS UNIVERSITY
Akkreditasiya Şurasının 28 noyabr 2024-cü il tarixli AKŞQ-02 nömrəli qərarı ilə 5 (beş) il müddətində akkreditasiya olunmuşdur.
Has been accredited for 5 (five) years by decision № AKŞQ-02 of the Accreditation Council, dated 28 November, 2024.
İdarə Heyətinin sədri
Chairperson of the Management Board
Tural Əhmədov

TKTA
İNSTİTUSİONAL AKKREDİTASİYA ŞƏHADƏTNAMƏSİ
INSTITUTIONAL ACCREDITATION CERTIFICATE
№ AC000000011
QƏRBİ KASPİ UNİVERSİTETİ
WESTERN CASPIAN UNIVERSITY
Akkreditasiya Şurasının 28 noyabr 2024-cü il tarixli AKŞQ-02 nömrəli qərarı ilə 5 (beş) il müddətində akkreditasiya olunmuşdur.
Has been accredited for 5 (five) years by decision № AKŞQ-02 of the Accreditation Council, dated 28 November, 2024.
İdarə Heyətinin sədri
Chairperson of the Management Board
Tural Əhmədov

TKTA
İNSTİTUSİONAL AKKREDİTASİYA ŞƏHADƏTNAMƏSİ
INSTITUTIONAL ACCREDITATION CERTIFICATE
№ AC000000012
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ
AZERBAIJAN TOURISM AND MANAGEMENT UNIVERSITY
Akkreditasiya Şurasının 28 noyabr 2024-cü il tarixli AKŞQ-02 nömrəli qərarı ilə 5 (beş) il müddətində akkreditasiya olunmuşdur.
Has been accredited for 5 (five) years by decision № AKŞQ-02 of the Accreditation Council, dated 28 November, 2024.
İdarə Heyətinin sədri
Chairperson of the Management Board
Tural Əhmədov

Nəticədə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Biznes Universiteti və Qərbi Kaspi Universitetinin institusional akkreditasiya qiymətləndirilməsi nəticələri "əsasən uyğundur" hesab edilərək növbəti 5 il müddətinə akkreditasiya edilməsi qərarı alınıb.

Gəncə Dövlət Universitetinin institusional akkreditasiya qiymətləndirilməsi nəticəsi isə "qismən uyğundur" hesab edilərək qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 il müddətinə uzadılması və sözügedən təhsil müəssisəsinin 1 ildən sonra təkrar akkreditasiya edilməsi qərara alınıb.

Yekun Hesabatda göstərilən tövsiyələrin icrasına nəzarəti təmin etmək məqsədilə ETN-in Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq Agentlik ilə razılaşdırılmaqla təsdiq olunması və fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə illik hesabatların TKTA-ya təqdim edilməsi nəzərdə tutulur. Siyahıda yer alan digər ATM-lərin akkreditasiya nəticələrinin 2025-ci ilin əvvəlində ETN-in Akkreditasiya Şurasının növbəti iclasına çıxarılması nəzərdə tutulub.

- Azərbaycan Turizm və Menecment Universiteti
- Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
- Sumqayıt Dövlət Universiteti
- Bakı Biznes Universiteti
- Bakı Slavyan Universiteti
- Gəncə Dövlət Universiteti
- Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı
- Qərbi Kaspi Universiteti
- Bakı Dövlət Universitetinin Qazax filialı
- Azərbaycan İdman Akademiyası
- Naxçıvan Dövlət Universiteti

İkili diplom proqramlarının akkreditasiya qiymətləndirilməsi:

Dünyanın qabaqcıl ATM-ləri ilə ölkənin inkişaf prioritetlərinə uyğun beynəlxalq ikili diplom proqramlarının respublikamızda tətbiqinin təmin olunmasınının xüsusi əhəmiyyətini nəzərə alaraq, TKTA tərəfindən adı çəkilən proqramların akkreditasiya qiymətləndirilməsi həyata keçirilib.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli, 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində maliyyələşdirilən ikili diplom proqramlarının akkreditasiya qiymətləndirilməsi nəticələri ETN-in Akkreditasiya Şurasına təqdim edilib. Beləliklə, 4 ATM-də 11 ixtisas üzrə proqram akkreditasiya qiymətləndirilməsi aparılıb və ETN-in Akkreditasiya Şurasının 28 noyabr 2024-cü il iclas protokoluna əsasən, qeyd olunan proqramlar növbəti 5 il ərzində akkreditasiyadan keçmiş hesab olunur.

ADA Universiteti və Corc Vaşinqton Universiteti (ADA-CVU)	Kompüter elmləri və verilənlərin təhlili ixtisası, Elektrik mühəndisliyi
Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universiteti (ADPU-CVU)	Təhsil siyasəti və idarəetməsi
Bakı Mühəndislik Universiteti və İNHA Universiteti (BMU-İNHA)	İnformasiya texnologiyaları, Elektrik mühəndisliyi, Elektronika mühəndisliyi, İnşaat mühəndisliyi
Azərbaycan Dövlət Aqrar Universiteti və Ege Universiteti (ADAU-EGE)	Aqromühəndislik, İqtisadiyyat, Aqronomluq, Bitki mühafizəsi

Peşə təhsili müəssisələrinin (PTM) institusional və proqram akkreditasiya qiymətləndirilməsi

TKTA tərəfindən PTM-lərin institusional və proqram akkreditasiya qiymətləndirilməsi meyarları hazırlanaraq təsdiq edildikdən sonra ölkə tarixində ilk dəfə olaraq PTM-lərdə də akkreditasiya prosesinə başlanılıb.

4 PTM-də (Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi, İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzi və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi) institusional akkreditasiya qiymətləndirilməsi həyata keçirilib. ETN-in Akkreditasiya Şurasının növbəti iclasında sözügedən təhsil müəssisələri üzrə müvafiq Akkreditasiya Komissiyaları tərəfindən hazırlanan Yekun Hesabatların ETN-in Akkreditasiya Şurasının növbəti iclasına çıxarılması nəzərdə tutulur.

RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI ÜZRƏ BAKI DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ

QƏBƏLƏ DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ

İSMAYILLI DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ

CƏLİLABAD DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ

“İbtidai sinif müəllimliyi” ixtisası üzrə proqram akkreditasiya qiymətləndirilməsi

TKTA tərəfindən 2024-cü ildə ilk dəfə olaraq proqram akkreditasiya qiymətləndirilməsi prosesinə başlanılıb. Ölkəmiz üçün prioritet sahələrdən biri olan “İbtidai sinif müəllimliyi” ixtisası üzrə kadr hazırlığı aparılan 14 ATM-də qəbul olunmuş meyarlar üzrə müvafiq olaraq proqram akkreditasiya qiymətləndirilməsi həyata keçirilib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı filialı, Gəncə Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun “İbtidai sinif müəllimliyi” ixtisası üzrə proqram akkreditasiya qiymətləndirilməsi yekunlaşdırılıb.

“İbtidai sinif müəllimliyi” ixtisası üzrə Naxçıvan Müəllimlər İnstitutu və ADPU-nun Şamaxı filialının proqram akkreditasiya nəticələri “qismən uyğundur”, Gəncə Dövlət Universitetinin proqram akkreditasiya qiymətləndirilməsi nəticəsi isə “uyğun deyildir” hesab edilərək qüvvədə olan akkreditasiya şəhadətnamələrinin müddətinin növbəti 2 il müddətinə uzadılması və hər üç ATM-in təhsil proqramının 1 ildən sonra təkrar akkreditasiya edilməsi qərara alınıb. Digər ATM-lərdə “İbtidai sinif müəllimliyi” üzrə proqram akkreditasiyası ilə əlaqədar sahə baxışları həyata keçirilib və hazırda müvafiq Komissiyalar tərəfindən Yekun Hesabat üzərində iş aparılır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Gəncə Dövlət Universiteti

Mingəçevir Dövlət Universiteti

Naxçıvan Dövlət Universiteti

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı

Xəzər Universiteti

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı

Azərbaycan Dillər Universiteti

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı

Lənkəran Dövlət Universiteti

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı

Bakı Qızlar Universiteti

Bakı Slavyan Universiteti

Beynəlxalq akkreditasiya təşkilatları tərəfindən həyata keçirilən proqram akkreditasiyası

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli, 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları" uyğun olaraq, Qazaxıstanın Müstəqil Akkreditasiya və Reytinq Agentliyi (IAAR) tərəfindən Azərbaycan Memarlıq və İnşaat Universitetində bakalavriat səviyyəsi üzrə 2 ixtisasın ("İnşaat mühəndisliyi" və "Nəqliyyat tikintisi mühəndisliyi"), magistratura səviyyəsi üzrə isə 1 ixtisasın ("İnşaat Mühəndisliyi"), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bakalavriat səviyyəsi üzrə 3 ixtisasın ("Operator sənəti", "Aktyor sənəti" və "Teatrşünaslıq"), Azərbaycan İdman Akademiyasında isə bakalavriat səviyyəsində 1 ixtisasın ("İdman menecmenti və kommunikasiya"), magistratura səviyyəsi üzrə isə 2 ixtisasın ("İdman tibbi və reabilitasiya" və "İdman menecmenti") beynəlxalq səviyyədə proqram akkreditasiya qiymətləndirilməsinin nəticələri dövlət akkreditasiyası tərəfindən nəzərə alınıb.

Təhsil müəssisələrinə təlim və metodoloji dəstək:

Təlim və metodologiya şöbəsi tərəfindən 14 ATM-də "İbtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyası, 4 ATM üzrə ikili diplom proqramlarının (ADPU-CVU, ADAU-Ege, BMU-İNHA, ADA-CVU) akkreditasiyası, habelə 11 ATM-də institusional akkreditasiya prosesində və 4 PTM-in (ümumi görüş olmaqla) akkreditasiya qiymətləndirilməsində iştirak edən Komissiya üzvləri üçün ümumilikdə 30 hazırlıq görüşü təşkil edilib.

Cari ildə həyata keçirilən ekspertlərin hazırlıq təlimləri üzrə Modul I, Modul II və Modul III təlimlərində iştirak edən 75 namizəd arasından 50-si uğurlu nəticə əldə edib və müvəffəqiyyət qazanıb.

29 noyabr 2024-cü il tarixində TKTA-nın təşkilatçılığı ilə Mingəçevir Dövlət Universitetində regionlarda fəaliyyət göstərən ATM-lərin nümayəndələrinin iştirakı ilə "XXI əsr təhsil çağırışları və tələbəyönümlü tədrisin təşkili" mövzusunda təlim keçirilib. Sözügedən təlimdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, Agentliyin struktur bölmə rəhbərləri və əməkdaşları, həmçinin 9 ATM-lərdən - Mingəçevir Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, ADPU-nun Şəki filialı, ADPU-nun Ağcabədi filialı, ADPU-nun Şamaxı filialı, Bakı Dövlət Universitetinin Qazax filialı və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının 100 nəfərdən artıq akademik və inzibati heyəti, media nümayəndələri iştirak ediblər (https://tinyurl.com/349bn6tx).

20 dekabr 2024-cü il tarixində TKTA-nın təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində "Keyfiyyətli təhsil - müasir çağırışlar" mövzusunda forum keçirilib. Forumda TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, Agentliyin struktur bölmə rəhbərləri və əməkdaşları, həmçinin Naxçıvan Dövlət Universitetinin 300 nəfərdən artıq akademik və inzibati heyəti, media nümayəndələri iştirak ediblər (https://tinyurl.com/bdraycr8).

24 dekabr 2024-cü il tarixində TKTA-nın və Bakı Ali Neft Məktəbinin (BANM) təşkilatçılığı ilə "Keyfiyyətli təhsil - müasir çağırışlar" mövzusunda forum keçirilib. Forumda TKTA-nın və BANM-in rəhbərliyi, Agentliyin struktur bölmələri və əməkdaşları, ETN yanında İctimai Şuranın sədri Hikmət Əlizadə, həmçinin Bakı və Sumqayıtda yerləşən ümumilikdə 42 ATM-in 120 nəfərdən artıq akademik və inzibati heyəti iştirak ediblər. Forum çərçivəsində TKTA əməkdaşları tərəfindən "Tələbəyönümlü yanaşma və effektiv təlim nəticələri" və "Məlumatəsaslı qərarvermə yolu ilə ATM-də keyfiyyət mədəniyyətinin formalaşdırılması" mövzularında praktiki təlimlər təşkil edilib (https://tinyurl.com/j2pheyby).

Hər üç forumun məqsədi ATM-lərin nümayəndələrinə keyfiyyət təminatına dair faydalı məlumatların verilməsi, daxili keyfiyyət təminatı sisteminin formalaşması, eləcə də ATM-lərdə keyfiyyət təminatı strukturunun işinin səmərəli təşkili və tədrisin tələbəyönümlü prinsiplər əsasında qurulmasına dəstək olmaqdır.

Tanınma

Xarici kvalifikasiyaların tanınması:

Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması üzrə mövcud qanunvericiliyin təkmilləşdirilməsi və prosesin beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı ilə "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları" təsdiq edilib.

Cari ildə xarici kvalifikasiyaların tanınması ilə bağlı ümumilikdə 6058 müraciət üzrə ekspertiza həyata keçirilib. Keçirilmiş ekspertizanın nəticəsində 4941 müraciət üzrə müsbət rəy verilərək müraciət sahiblərinə xaricdə əldə olunan kvalifikasiyaların tanınması barədə müvafiq şəhadətnamələr təqdim edilib. Digər 1117 müraciət üzrə isə mənfi rəy verilərək müraciət sahiblərinin ali təhsil ixtisaslarının ölkə ərazisində tanınmaması haqqında qərar verilib.

Cari ildə Dövlət İmtahan Mərkəzi tərəfindən peşə tanınması ilə bağlı keçirilən sınaq imtahanlarında iştirak etmək üçün ümumilikdə 771 namizəd qeydiyyatdan keçib və bunlardan 697-si imtahanda iştirak edib. Ümumilikdə, müvafiq imtahanda məzun olanların 41 ixtisas üzrə müvəffəqiyyət göstəricisi isə 49% olub.



QFİTT:

2024-cü il ərzində formal təhsilə çıxış imkanı olmayan vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, sərişte və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə 6 yeni peşə ixtisası üzrə (Avtomobil mühərrikləri yığıcısı, Mühafizəçi, İnşaat ustası, Kargüzar, Kompüter operatoru və Poliqrafiya üzrə dizayner) qiymətləndirilmə və tanınma həyata keçirilərək peşə ixtisaslarının sayı 20-dən 26-ya çatdırılıb.

Ümumilikdə, cari ildə qiymətləndirilmə və tanınma nəticəsində 10 peşə ixtisası üzrə 189 nəfər vətəndaşa peşə ixtisasını təsdiq edən sənəd təqdim edilib.

2024-cü il üzrə QFİTT istiqamətində sənəd əldə edən müraciətçilərin sayına münasibətdə TKTA-nın öhdəliyi 2023-cü ilə (171 nəfər) nisbətdə 10 faizlik artımla 188 nəfər təşkil edib. Ümumilikdə, 248 nəfər nəzəri imtahanda iştirak hüququ əldə edib ki, bunlardan 199 nəfər məqbul, 49 nəfər isə qeyri-məqbul nəticə göstərib. Növbəti mərhələdə praktiki imtahanda iştirak edən 191 nəfər namizəddən 2 nəfər qeyri-məqbul, 189 nəfər isə məqbul nəticə göstərib və peşə ixtisasını təsdiq edən müvafiq sənəd əldə edib. Bununla da, 2024-cü il üzrə Tədbirlər Planında göstərilən hədəf 100 faizlik nəticə ilə yekunlaşıb.

İl ərzində görülmüş digər işlər

İnformasiya Təminatı

Vətəndaş müraciətlərinin 2024-cü il üzrə statistikası

30634	Çağrı Mərkəzi
10596	Elektron Müraciətlər
1498	Sosial Şəbəkələr
1782	Yazılı Müraciətlər
467	Vətəndaş Qəbulu

Tərəfdaşlıq

Xarici tədbirlər:

Almaniyanın Mərkəzi Qiymətləndirmə və Akkreditasiya Agentliyinin (ZEvA) təşkilati dəstəyi ilə 17-18 aprel 2024-cü il tarixlərində Hannover şəhərində keçirilən Ali Təhsilin Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyasının (ENQA) Baş Assambleyasında TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Agentliyin Keyfiyyət Təminatı Departamentinin direktoru İlham Hümbətov, həmçinin Akkreditasiya və lisenziya şöbəsinin müdiri Elmar Mustafayev iştirak ediblər. Qeyd edək ki, ENQA üzvlərinin 2024-cü il Forumu keyfiyyət təminatı agentlikləri və təşkilatları arasında əməkdaşlığın, həmçinin Avropa ali təhsil müstəvisində dialoqun təşviq edilməsində mühüm tədbirlərdən biri hesab olunur (bit.ly/3CwXgqe).

25-26 aprel 2024-cü il tarixlərində Türkiyə Respublikasının Ankara şəhərində Türkiyə Ali Təhsildə Keyfiyyət Təminatı Şurasının (YÖKAK) və Hacı Bayram Vəli Universitetinin təşkilatçılığı ilə "YÖKAK 2024-Keyfiyyət təminatı və akkreditasiya" adlı beynəlxalq konfrans keçirilib. Konfransda TKTA İdarə Heyətinin sədri Tural Əhmədov və Hüquq təminatı departamentinin direktor müavini, Hüquqi məsələlərin tənzimlənməsi şöbəsinin müdiri Sabir Mirzəzadə iştirak ediblər (https://bit.ly/4aHKiTk).

TKTA-nın Kvalifikasiyaların tanınması departamentinin direktoru Aysel Kərimli kvalifikasiyaların tanınması sahəsində İtaliyanın əsas Milli Məlumat Mərkəzi olan CIMEA-nın təşkilatçılığı ilə İtaliyanın Roma şəhərində keçirilən "Lissabon Tanınma Konvensiyası" üzrə Boloniya prosesinin Tematik İşçi Qrupunun 7-ci görüşündə iştirak edib (https://bit.ly/4hshrEM).

17-18 may 2024-cü il tarixlərində TKTA-nın təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropa Ölkələrinin Keyfiyyət Təminatı Agentlikləri Şəbəkəsinin (CEENQA) Baş Assambleyası Bakı şəhərində keçirilib. Tədbir Mərkəzi və Şərqi Avropa regionunda keyfiyyət təminatı agentlikləri arasında ali təhsil müstəvisində keyfiyyət təminatı, institusional və proqram akkreditasiyası və kvalifikasiyaların tanınması sahəsində dialoqun təşviq edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, Baş Assambleyada transmilli təhsilin keyfiyyət təminatı, keyfiyyət təminatında yeni yanaşmalar ilə bağlı müzakirələr də daxil olmaqla, bir neçə mühüm mövzular ətrafında iştirakçılar arasında fikir mübadiləsi aparılıb (https://tinyurl.com/2s3h8367).

Xarici tədbirlər:

12-19 iyun 2024-cü il tarixlərində TKTA-nın Akkreditasiya və Lisenziya şöbəsinin əməkdaşı Heydər Rzayev Rumıniyanın Konstansa şəhərində baş tutan Keyfiyyət Təminatı üzrə Bolonya Tematik Qrupunun 6-cı iclasında iştirak edib. Avropa Ali Təhsil Məkanı üzv ölkələrinin təhsil sistemlərinin nümayəndələrinin iştirak etdiyi görüşdə keyfiyyət təminatı prosesinin rəqəmsallaşdırılması, Avropa universitetlərində keyfiyyət təminatı, ikili diplom proqramların keyfiyyət təminatına Avropa yanaşmasına dair bir sıra məsələlər müzakirə olunub. Görüşün ikinci günündə, Tematik Qrupun gələcək prioritet mövzuları barədə təqdimatlar ətrafında müzakirələr keçirilib (https://bit.ly/4giDmgu).

TKTA-nın Təlim və Metodologiya şöbəsinin baş məsləhətçisi Vəfadar Rizvanlı 17-20 sentyabr 2024-cü il tarixlərində Finlandiyanın Helsinki və Estoniyanın Tallin şəhərlərində baş tutan "Təhsilverənlərin tədris peşəkarlığının inkişaf etdirilməsi" təlim proqramında iştirak edib. Təlim Finlandiya Respublikasının Təhsil və Mədəniyyət Nazirliyi, Estoniya Respublikasının Təhsil və Tədqiqat Nazirliyi tərəfindən birgə təşkil olunub (https://tinyurl.com/593uxyes).

4-5 oktyabr 2024-cü il tarixlərində Qazaxıstan Respublikasının Astana şəhərində Qazaxıstanın Müstəqil Akkreditasiya və Reytinq Agentliyi tərəfindən Astana IT Universitetində "İnformasiya məkanında təhsildə keyfiyyətin yüksəldilməsi ATM-lərin strateji inkişaf fenomeni kimi" adlı Mərkəzi-Asiya Təhsildə Keyfiyyət Təminatı VIII Beynəlxalq Forumu keçirilib. Forumda TKTA İdarə Heyətinin sədr müavini Kamran Rəsulov iştirak edib (https://tinyurl.com/33mv2sna).

23-25 oktyabr 2024-cü il tarixlərində Malta Respublikasının Sent-Culians şəhərində Malta Əlavə və Ali Təhsil Təşkilatının (MFHEA) ev sahibliyi etdiyi ENQA Baş Assambleyasında TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Akkreditasiya və Lisenziya şöbəsinin müdiri Samir Quliyev iştirak ediblər (https://tinyurl.com/422yxxy6).

4 dekabr 2024-cü il tarixində ETN və TKTA-nın təşkilatçılığı, eləcə də Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və Azərbaycan Respublikasının Təhsil İnstitutunun tərəfdaşlığı ilə "Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış" adlı II beynəlxalq konfrans keçirilib. Konfransda elm və təhsil naziri Emin Əmrullayev, dövlət və hökumət nümayəndələri, nazirliyin struktur bölmələrinin rəhbərləri, bir sıra universitetin rəhbər heyəti, regional təhsil idarələrinin əməkdaşları, məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, eləcə də Böyük Britaniya və Finlandiyadan olan məruzəçilər və yerli mütəxəssislər iştirak ediblər (https://tinyurl.com/448kf5d2).

Yerli tərəfdaşlıq:

QFİTT istiqamətində TKTA ilə “Gələcəyə Körpü” Gənclər İctimai Birliyinin tərəfdaşlığı və “BP Azərbaycan”ın maliyyə dəstəyilə, neft və qaz boru kəmərləri keçən regionlarda yaşayan əhalinin qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, sərişta və təcrübənin tanınması məqsədilə sosial layihəyə start verilib.

28 fevral 2024-cü il tarixində TKTA ilə “Norm” ASC arasında QFİTT üzrə Anlaşma Memorandumu imzalanıb və əməkdaşlıq çərçivəsində 2024-cü il ərzində “Norm” ASC-nin layihəsi olan Norm Ustalar Klubunun üzvlərinin bilik, bacarıq, sərişta və təcrübələrinin qiymətləndirilməsi və tanınması həyata keçirilib (https://tinyurl.com/5n7yt7x9).

Əlavə olaraq, TKTA ilə "Norm" ASC arasında “Norm Ustalar Klubu” üzvlərinin “İnşaat ustası” peşə ixtisası üzrə bilik və bacarıqlarının qiymətləndirilməsi və tanınması istiqamətində 21 nəfər, “PAŞA Holding” MMC ilə tərəfdaşlıq istiqamətində isə “Peşəkar qadınlar” sosial layihəsi çərçivəsində “Bərbər”, “Bərbər-vizajist-manikürçü”, “Dərzi”, “Zərgər”, “Qənnadçı, şirniyyatçı” peşə ixtisasları üzrə 110 nəfər peşə ixtisasını təsdiq edən müvafiq sənəd əldə edib (https://tinyurl.com/e2tz5m2d).

Cari ilin 2024-cü ilin 29 oktyabr tarixində Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində Təhsilin İnkişafı Fondu (TİF) və TKTA-nın nümayəndələri ilə görüş keçirilib. Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, TİF-in İdarə Heyətinin sədri Elnur Nəsibov, TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və hər üç qurumun təmsilçiləri iştirak ediblər. Görüş zamanı onlar təmsil etdikləri qurumların fəaliyyəti və əməkdaşlıq perspektivləri haqqında müzakirələr aparıblar (https://tinyurl.com/2e3ydjcn).

29 noyabr 2024-cü il tarixində TKTA-nın təşkilatçılığı ilə Mingəçevir Dövlət Universitetində regionlarda fəaliyyət göstərən ATM-lərin nümayəndələrinin iştirakı ilə “XXI əsr təhsil çağırışları və tələbəyönümlü tədrisin təşkili” mövzusunda təlim keçirilib. Sözügedən təlimdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, Agentliyin struktur bölmə rəhbərləri və əməkdaşları, həmçinin 9 ATM-in 100 nəfərdən artıq akademik və inzibati heyəti, media nümayəndələri iştirak ediblər (https://tinyurl.com/349bn6tx).

20 dekabr 2024-cü il tarixində TKTA-nın təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində “Keyfiyyətli təhsil – Müasir çağırışlar” mövzusunda forum keçirilib. Forumda TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, Agentliyin struktur bölmə rəhbərləri və əməkdaşları, həmçinin Naxçıvan Dövlət Universitetinin 300 nəfərdən artıq akademik və inzibati heyəti, media nümayəndələri iştirak ediblər (https://tinyurl.com/bdraycr8).

24 dekabr 2024-cü il tarixində TKTA-nın və BANM-ın təşkilatçılığı ilə “Keyfiyyətli təhsil – Müasir çağırışlar” mövzusunda forum keçirilib. Forumda TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, Agenliyin struktur bölmə rəhbərləri və əməkdaşları, BANM rektoru Elmar Qasımov, Azərbaycan Respublikası ETN yanında İctimai Şuranın sədri Hikmət Əlizadə, həmçinin Bakı şəhəri və Abşeron rayonunda yerləşən ümumilikdə 42 ATM-in 120 nəfərdən artıq akademik və inzibati heyəti iştirak ediblər (https://tinyurl.com/2p8dvdfc).

Heyətin mübadiləsi:

TKTA, eyni zamanda, müvafiq əməkdaşlarının beynəlxalq təcrübələrinin artırılmasında maraqlı tərəf kimi çıxış edir və bunu təşviq edir.

9-13 dekabr 2024-cü il tarixlərində TKTA-nın Akkreditasiya və lisenziya şöbəsinin əməkdaşı Xanım Quliyeva TKTA-nın və Ali Təhsil üzrə Sloveniya Keyfiyyət Təminatı Agentliyi (NAKVIS/SQAA) arasında heyətin mübadiləsində iştirak edib və adıçəkilən Agentliyin akkreditasiya təcrübəsi ilə yaxından tanış olub. Eyni zamanda, tərəflər akkreditasiya prosesi zamanı əldə olunan maraqlı təcrübələrini bölüşüblər. Beləki, TKTA tərəfindən ekspertlərin akkreditasiya qiymətləndirilməsinin həyata keçirilməsi məqsədilə təşkil edilən simulyasiya prosesi NAKVİS tərəfindən maraqla qarşılanıb (https://tinyurl.com/vtrd96pu).

3-5 dekabr 2024-cü il tarixlərində TKTA-nın Akkreditasiya və Lisenziya şöbəsinin baş məsləhətçisi Faina Qaçabəyova Slovakiya Ali Təhsil üzrə Akkreditasiya Agentliyinin (SAAHE) akkreditasiya təcrübəsi ilə yaxından tanış olub və TKTA ilə SAAHE arasında heyətin mübadiləsində iştirak edib (https://tinyurl.com/2s3cyjb9).

9-13 dekabr 2024-cü il tarixlərində TKTA-nın Akkreditasiya və Lisenziya şöbəsinin əməkdaşı Mehparə Yusifli Təhsildə Keyfiyyət Təminatı Agentliyinin və Latviyanın Akademik İnformasiya Mərkəzi – Ali Təhsil üzrə Keyfiyyət Agentliyi (AİKA) arasında heyətin mübadiləsində iştirak edib və adıçəkilən Agentliyin akkreditasiya təcrübəsi ilə yaxından tanış olub (https://tinyurl.com/mryx5rkd).

9-13 dekabr 2024-cü il tarixlərində TKTA-nın Akkreditasiya və Lisenziya şöbəsinin əməkdaşı Nigar Əsgərova Rumıniyanın Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (ARACIS) səfər edib. Səfərin əsas məqsədi keyfiyyət təminatı istiqamətində ARACIS təcrübəsi ilə yaxından tanış olmaq və TKTA təcrübəsini bölüşməkdən ibarət olub (https://tinyurl.com/mry5ftu8).

16-18 dekabr 2024-cü il tarixlərində TKTA-nın Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev Türkiyə Respublikasına səfər edib YÖKAK-da müvafiq görüşlər keçirib. Səfər çərçivəsində ATM-lərdə xarici keyfiyyət təminatı ilə əlaqədar qanunvericilik tələbləri, milli qiymətləndirmə meyarları, həmçinin Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlardan irəli gələn tələblərə münasibətdə fəaliyyətlərin təşkili, daxili keyfiyyət təminatında mövcud metodologiya və yanaşmalar, tələbələrlə iş mexanizmlərinin öyrənilməsi, YÖKAK-ın proqram akkreditasiya agentlikləri ilə fəaliyyət mexanizmi və beynəlmiləlləşmə mövzularında ətraflı fikir mübadiləsi aparılıb (https://tinyurl.com/ywt648f2).

16-19 dekabr 2024-cü il tarixlərində TKTA-nın QFİTT şöbəsinin müdiri Elmir Həsənov Türkiyə Respublikasının Peşə Kvalifikasiyası Qurumunun Mesleki Yeterlilik Kurumu, Xarici Kvalifikasiyaların Tanınması şöbəsinin müdiri Elnur Xəlilov və adıçəkilən şöbənin əməkdaşı Nigar Cəniyeva isə Türkiyə Respublikasın Milli Təhsil Nazirliyinin Təlim və Metodologiya Şurasının (Talim ve Terbiye Kurulu) və Türkiyə Respublikası Ali Təhsil Şurasının təcrübəsi ilə tanış olmaq qarşılıqlı əməkdaşlıq imkanlarının müzakirəsi məqsədilə həmin ölkəyə səfər ediblər (https://tinyurl.com/2tsj6hus).

Hüquqi məsələlər

Qanunvericilik vəsatəti

Məlum olduğu kimi, Agentliyin fəaliyyət istiqamətləri üzrə normativ hüquqi akt layihələrinin hazırlanması və qanunvericilikdə nəzərdə tutulmuş qaydada mərkəzi icra hakimiyyəti orqanlarına təqdim olunması, həmçinin Agentliyin fəaliyyət istiqamətləri üzrə inzibati və məhkəmə icraatı üzrə şikayətlərlə bağlı işlərin görülməsi Hüquqi məsələlərin tənzimlənməsi şöbəsinin vəzifələrinə aid edilib.

Bununla bağlı qeyd etmək istərdik ki, ötən dövr ərzində peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, sərişte və təcrübənin qiymətləndirilmənin nəticəsində müvəffəqiyyət qazanmış ərizəçilərə təqdim olunan sənədlərin elektronlaşdırılması, həmin sənədlər əsasında onlara müvafiq ixtisas üzrə əmək fəaliyyəti ilə məşğul olmaq hüquqlarının verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli, 279 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, sərişte və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası"na, (https://e-qanun.az/framework/45613), (https://e-qanun.az/framework/56636), həmçinin əldə olunmuş diplom əsasında onlara təhsillərini peşə təhsilinin növbəti pilləsində davam etdirmək hüququnun təsbit olunması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli, 173 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid Qaydası"na dəyişikliklər edilməsini nəzərdə tutulan layihələr hazırlanaraq təqdim olunub (https://e-qanun.az/framework/42100), (https://e-qanun.az/framework/56635).

2024-cü il ərzində qeyd olunan layihələr əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli, 176 nömrəli və 27 mart 2024-cü il tarixli, 175 nömrəli Qərarları ilə yuxarıda qeyd olunmuş normativ hüquqi aktlarda təklif olunan dəyişikliklər təsdiq edilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli, 493 nömrəli Qərarının 4-cü hissəsinə əsasən, (https://e-qanun.az/framework/46460) "PTM-lərin" institusional akkreditasiya üzrə qiymətləndirmə Meyarları və "PTM-lərin" proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları TKTA tərəfindən hazırlanaraq ETN-ə təqdim olunub, həmin Meyarlar Azərbaycan Respublikasının ETN-in Kollegiyasının 9 oktyabr 2024-cü il tarixli, KQ-13 nömrəli Qərarı ilə təsdiq edilib və Ədliyyə Nazirliyinin müvafiq reyestrində yerləşdirilib (https://e-qanun.az/framework/58178).

Həmçinin qeyd etmək istərdik ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na əsasən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını həyata keçirilməsi üzrə icraatın nəticələrindən narazı qalan ərizəçilərin inzibati qaydada şikayətlərinə baxılması üçün Nazirlik tərəfindən yaradılan Apellyasiya Komissiyasının Əsasnaməsində qanunvericilik aktlarında edilmiş dəyişikliklərlə bağlı zəruri düzəlişlər və Komissiyanın tərkibi ilə bağlı təkliflər hazırlanaraq təqdim olunmuş, ETN-in müvafiq əmri ilə həmin dəyişikliklər təsdiq edilib (https://e-qanun.az/framework/54957).

Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

tktaeduaz